PARADIGMA, No.2, 2026, səh.27-33
https://doi.org/10.30546/30015.2026.001.02.315

# GİRDMAN KNYAZLIĞINDA ƏRƏB HAKİMİYYƏTİ DÖVRÜNDƏ MƏDƏNİ VƏ DİNİ DƏYİŞİKLİKLƏR

**F.F. Vahidova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
E-mail: fidanvahidova5847@gmail.com

**Xülasə:** Məqalədə Girdman knyazlığında Ərəb xilafətinin hakimiyyəti dövründə baş vermiş siyasi, mədəni və dini dəyişikliklər tarixi mənbələr əsasında araşdırırlır. Tədqiqat ərəb istilasının bölgənin idarəetmə sisteminə, vergi və torpaq münasibətlərinə və əhalinin dini həyatına göstərdiyi təsiri təhlil edilir. Məqalədə İslam dininin yayılması, dini münasibətlərdə meydana çıxan yeni reallıqlar xüsusi yer tutur. Tədqiqat göstərir ki, İslamın Girdmanda yayılması əsasən tədrici və mərhələli xarakter daşımış, yerli dini və mədəni əlaqələr uzun müddət mövcudluğunu qorumuşdur. Eyni zamanda "ərəb-müsəman mədəniyyəti"nin təsiri memarlıq, yazı və dil münasibətləri, ədəbiyyat və gündəlik məişətdə özünü aydın şəkildə göstərmişdir.

**Açar sözlər:** Ərəb Xilafəti, Girdman knyazlığı, Azərbaycan, İslam dini, siyasi-inzibati dəyişikliklər, mədəni dəyişikliklər.

## Giriş

Cənubi Qafqazın tarixi inkişafında mühüm yer tutan Girdman knyazlığı qədim dövrlərdən etibarən siyasi və mədəni proseslərin kəsişdiyi əsas mərkəzlərdən biri olmuşdur. Ərazi, müxtəlif dövlət və imperiyaların təsiri altında formalaşaraq çoxlu ictimai-mədəni mühitin yaranmasına şərait yaratmışdır. VII əsrin ikinci yarısından etibarən ərəb xilafətinin bölgədə hökmranlıq qurması Girdman knyazlığının ictimai-siyasi və mənəvi həyatında əhəmiyyətli dönüş nöqtəsi kimi çıxış etmişdir.

Ərəb hakimiyyətinin bərqərar olması Girdmanda yalnız siyasi asılılıqla məhdudlaşmamış, eyni zamanda iqtisadi münasibətlərin genişlənməsi, şəhər həyatının canlanması və sosial strukturların yenidən formalaşması ilə müşayiət olunmuşdur. Xilafət tərəfindən tətbiq edilən inzibati və dini siyasət - islam dininin yayılması, xristian icmalarının hüquqi mövqeyinin tənzimlənməsi, əhalinin dini mənsubiyyətinə əsaslanan vergi sistemi - yerli cəmiyyətin sosial təbəqələşməsinə və dini dünyagörüşünün dəyişməsinə mühüm təsir göstərmişdir. Bununla yanaşı, islamın bölgədə yayılması tədrici xarakter daşımış, yerli alban kilsəsi uzun müddət öz təsir imkanlarını saxlamışdır.

Bu dövrdə baş verən dəyişikliklər mədəni həyatın müxtəlif sahələrində - memarlıq üslubunda, yazı və dil münasibətlərində, bədii yaradıcılıqda və gündəlik məişətdə aydın şəkildə müşahidə olunur. İslam mədəniyyətinin gətirdiyi yeniliklər və yeni dini normalar cəmiyyətin

müəyyən hissəsi tərəfindən qəbul edilsə də, Girdmanın qədim yerli-alban mədəni ənənələri tamamilə aradan qalxmamış, əksinə yeni təsirlərlə sintez olunaraq bölgəyə məxsus özünəməxsus mədəni mühit formalaşdırmışdır.

Hazırladığım məqalədə Girdman knyazlığında ərəb hakimiyyəti dövründə baş verən mədəni və dini dəyişikliklər hərtərəfli şəkildə təhlil edilir. Araşdırmada həm siyasi-idarəçilik amilləri, həm də dini praktika və gündəlik həyatdakı transformasiyalar nəzərdən keçirilərək, ərəb hakimiyyətinin Girdmanın tarixi-mədəni irsinin formalaşmasındakı rolu obyektiv şəkildə qiymətləndirilir.

**Tədqiqat**

Azərbaycanın, xüsusən Arran ərazisinin əhalisi uzun müddət davam edən hücumlar nəticəsində ciddi iqtisadi çətinliklərlə üz-üzə qalmışdı. Davamlı müharibələr əhalinin güzəranını ağırlaşdırmış, təsərrüfat həyatını isə demək olar ki, iflic vəziyyətinə salmışdı. Bu şəraitdə yerli sakinlər ərəblərin bölgəyə gəlişini müəyyən dərəcədə nicat yolu kimi qiymətləndirirdilər. Ziya Bünyadovun vurğuladığına görə, ərəb hakimiyyəti dövründə kəndlilərin yaşayış şəraiti əvvəlki mərhələlərlə müqayisədə nisbətən yaxşılaşmışdı.

Xilafət Arranın hərbi potensialından yararlanmaq məqsədilə onun daxili müstəqilliyini məhdudlaşdırmamış və bölgədə mövcud olan əvvəlki idarəçilik qaydalarını qoruyub saxlamışdır. Xilafətə vassal asılılığında olan Girdman knyazlığı yalnız bac ödəyir, bununla yanaşı daxili hakimiyyəti və idarəetmə müstəqilliyini saxlayırdı [2, 90]. Ərəblər Azərbaycan və Arran ərazisində məskunlaşdıqdan sonra həyata keçirdikləri hərbi yürüşlər zamanı yerli əhalinin qüvvələrindən faydalanırdılar [2, 95].

Ərəblər Azərbaycanda, o cümlədən Arran bölgəsində vergi və torpaq münasibətlərində mühüm dəyişikliklər həyata keçirmişdilər. Xəlifə Əbdül-Malikin hakimiyyəti dövründə vergi yığımının təşkili yenidən quruldu. Onun göstərişinə əsasən, hər kəs öz doğma yurduna və kəndinə qayıtmalı, atasından miras qalmış təsərrüfatı, əmlakı, ailə üzvləri və sahib olduğu bütün var-dövlət xüsusi siyahıya alınmalı idi. Bu tədbir ərəblər tərəfindən aparılan ilk ümumi sayım kimi qiymətləndirilir [2, 133]. Eyni zamanda, Əməvilərin hakimiyyəti illərində ruhanilərə geniş imtiyazlar verilmişdi. Bu siyasətin əsas məqsədi əhalini dini vasitələrlə nəzarətdə saxlamaq idi [2, 132].

Arran əhalisinin əsasən xristian olması səbəbindən onlar xəlifə xəzinəsinə iki növ vergi – cizyə və xərac ödəyirdilər. Müsəlmanlardan isə yalnız onda bir vergisi, yəni üşr tutulurdu. Torpaq vergisi baxımından da müsəlman olmayan əhali müsəlmanlara nisbətən iki dəfə artıq vergi ödəməyə məcbur idilər. Xilafətin qanunlarına görə xristianlardan vergilərin zor tətbiq edilmədən yığılması tələb olunsa da, bəzi vergi məmurları bu göstərişlərə əməl etmirdilər.

Xristian əhaliyə müəyyən güzəştlərin tətbiqi isə əsasən xəlifə II Ömərin (717-720) hakimiyyəti illərində müşahidə olunmağa başlamışdır. Xəlifə Hişamın hakimiyyəti dövründə Azərbaycan və Arran ərazisində ərəb vergi siyasətində ciddi dəyişikliklər həyata keçirildi. Bu mərhələdə xərac dövlət xəzinəsinin əsas gəlir mənbələrindən birinə çevrildi. Ərəblər arasında belə bir düşüncə formalaşmışdı ki, müsəlman icmasının gücü məhz xərac vergisi ilə təmin olunur. 725-726-cı illərdə Hişamın göstərişi ilə Azərbaycan və Arranda əhali, torpaq, mal-qara və müxtəlif növ əmlak yenidən qeydiyyata alınaraq ümumi sayım aparıldı. Aparılan bu sayımdan yeni vergi qaydaları tətbiq olunmağa başlandı. Qaydalara əsasən, sıravi əhali ilə yanaşı rahiblərin də vergiyə cəlb edilməsi nəzərdə tutuldu və bu mərhələdən sonra rahiblərdən cizyə vergisi alınmağa başlandı [2, 133-134].

Bunlarla yanaşı əhalidən tutulan digər mühüm vergilər də mövcud idi. Onlardan biri xüms idi ki, bu vergi kafirlərlə aparılan döyüşlər zamanı əldə edilən qənimətlərdən, əsirlərdən və daşınar əmlakdan tutulurdu. Digər əsas vergi növü isə zəkat olub, əsasən mal-qaradan alınırdı [2,152].

Ərəb Xilafəti geniş ərazidə hakimiyyətini möhkəmləndirdikdən sonra həmin torpaqları idarə etmək üçün canişinlik sistemi tətbiq etdi. Azərbaycan və Arran ərəblər tərəfindən istila edildikdən sonra onların coğrafi adları əsasən dəyişməz qalırdı, lakin inzibati adlandırmaları yenilənirdi. Ibn əl-Fəqih qeyd edir ki, “Azərbaycan ərazisi Bərdədən Zəncana qədərdir”, yəni Bərdə və Zəncan həmin əraziyə daxil deyildi. Bəzən Arran da Azərbaycana daxil edilərək “Yuxarı Azərbaycan” adlandırılırdı, Əl-yəqubi yazır ki, Arranı Azərbaycandan Araz çayı ayırır. Yaqut əl-Həməvinin yazdığına görə Azərbaycan və Arran arasında olan çay ər-Ras adlanırdı. Lakin ərəblər çox vaxt Azərbaycan, Arran və Ermənistanı bir inzibati vahid altında birləşdirərək bir canişinlik təşkil edir və bunu bəzən “Erməniyyə”, bəzən də “Azərbaycan” adlandırırdılar. İbn Havqəl isə bildirir ki, “biz bu üç ölkəni bir vilayət hesab edirik” [7,123].

Xilafət işğal etdiyi ərazilərə öz vergilərini təyin etdiyi kimi, torpaq mülkiyyətini də tətbiq etmişdi. Torpaq mülkiyyətinin bir neçə əsas növü var idi: sultan, iqta, mülk, vəqf və icma torpaqları. Sultan torpaqları yüksək gəlir gətirdiyinə görə onların idarə olunması üçün xüsusi divanlar təşkil edilmişdi. İqta torpaqları sultanın müəyyən şəxslərə torpaq sahəsini verməsi və həmin ərazilərin idarəsini onlara həvalə etməsi ilə formalaşırdı. Əkin sahələrinin böyük hissəsi məhz iqta torpaqlarından ibarət idi. İqta torpaqları iki yerə bölünürdü: bağışlanan və icarəyə verilən iqta. Bağışlanan iqta tam mülkiyyət hüququ verirdi və irsi qaydada nəsildən-nəsilə keçirdi. Icarəyə verilən iqta isə əsasən hərbi qulluqçulara təqdim edilir, lakin irsi xarakter daşımırdı. Mülk torpaqları isə əsasən məmurların və maddi imkanı olan şəxslərin dövlət torpaqlarını əldə etməsi nəticəsində yarandı. Bu torpaq sahibləri həmin ərazilərdən daimi gəlir

götürür, lakin hərbi xidmətə cəlb olunmurdular. Mülk torpaqları üzərində alqı-satqı aparmaq, onları başqasına hədiyyə etmək və miras kimi ötürmək mümkün idi. Vəqf torpaqları dini və ictimai məqsədlər üçün ayrılırdı. Bu torpaqlardan əldə edilən gəlirlər məscidlərin, qalaların tikintisinə, qazilərin saxlanmasına və digər zəruri ehtiyacların ödənilməsinə yönəlirdi. İcma torpaqları isə kənd əhalisinin ümumi istifadəsində olan sahələri əhatə edirdi. Buraya otlaq yerləri, əkin-biçənək əraziləri, qəbiristanlıqlar və digər kollektiv istifadədə olan ərazilər daxil idi [2, 147-152].

Xəlifələr Xilafəti idarə etmək üçün hər bir vilayətin əhalisi, vergiləri, ictimai vəziyyəti və digər xüsusiyyətləri haqqında ətraflı məlumat toplamalı idilər. Hər bir vilayətin başında xəlifənin canişini olan əmir yerləşirdi. Əmir həm vilayətdəki qoşunların komandiri, həm də inzibati idarənin rəhbəri idi; bütün mülki və hərbi hakimiyyət onun əlində cəmlənmişdi. Əmirin nəzarəti altında xüsusi vəzifələri yerinə yetirən məmurlar – amil və qazı fəaliyyət göstərirdi. Amil mülki hakimiyyət işlərinə baxır və vergilərin yığılmasını təşkil edirdi. Qazı isə məhkəmə işlərini idarə edir və vəqf torpaqlarına nəzarət edirdi. Canişinlik mərkəzindən kənarda da vilayət və məhəllərdə inzibati və hərbi aparatın öz şöbələri fəaliyyət göstərirdi. Bu vəzifələrə ərəblər yerli məmur və əyanlardan şəxslər təyin edirdilər. Çünki, bütün vəzifə işlərinə yalnız ərəblər təyin edilə bilməzdi. Yerli əhalidən seçilmiş şəxslər isə adətən könüllü şəkildə İslam dinini qəbul edən və xəlifəyə xidmət etməyə razılıq verənlər arasında seçilirdi [2, 160-162].

Ərəblərin Albaniyanı işğal etməsi ölkədəki dini vəziyyəti daha da mürəkkəbləşdirdi. VII əsrə qədər bölgədə bütpərəstlər, zərdüştlər və xristianlar arasında gərgin münasibətlər vardısa, artıq VII əsrin ortalarında İslam dininin də yayılması ilə bu gərginlik daha da artdı. Ərəblər yeni gəldikləri dövrdə yerli əhalini İslamı qəbul etməyə zorlamırdılar, lakin bir çox yerli sakin öz mülklərini, torpaqlarını və s. qorumaq məqsədilə bu dini könüllü olaraq qəbul etdilər. Əhalinin bu siyasəti nəticəsində İslam geniş bir əraziyə yayılırdı və nəticədə alban kilsələrinin mövqeyi get-gedə zəifləyirdi. Erməni kilsəsi bu vəziyyətdən istifadə edərək albanlarla xəlifə arasında qarşıdurma yaratmağa çalışdılar. Erməni katalikosu İlya xəlifə Əbdül Malikə (685-705) yazdığı məktubda iddia edirdi ki, albanlar Xilafətə qarşı Bizansla ittifaq qurur. Əlbəttə ki, albanların Bizansla yaxınlaşması ehtimalı Xilafəti qəzəbləndirdi. Bundan sonra ərəblər Albaniyada İslam dinini qılınc gücünə yaymağa başladılar. Biz bildiyimiz “qılınc müsəlmanı” deyimi də məhz burdan gəlir. Arxeoloji tədqiqatlar göstərir ki, Girdman və ətraf ərazilərdə İslam sürətlə yayılıb. Belə ki, Qəbələ və Bəyimli qalasında VIII əsrin sonu – IX əsrin əvvəllərinə aid aşkar olunmuş müsəlman qəbirləri buna sübutdur [3, 265-266].

Bundan başqa biz ərəblərin gətirdiyi dəyişikliklərdən köçürmə siyasətindən də danışa bilərik. Ərəb işğalı Azərbaycanın etnik tərkibini və əhalinin məskunlaşmasını da dəyişdirdi.

Ərəblər bölgədə mövqelərini möhkəmləndirmək üçün müxtəlif ərəb qəbilələrini ölkənin müxtəlif hissələrinə köçürmüşdülər [6, 47]. Ərəb köklü tayfa və qəbilələrin Azərbaycana köçürülməsinin başlıca məqsədləri bunlar idi:

1. İşğal olunmuş ərazilərdə ərəblərin hakimiyyətini gücləndirmək və İslam dininin yayılmasını təmin etmək.

2. Mərkəzi vilayətlərdə narazılıq törədən ərəb qəbilələrini uzaq bölgələrə köçürmək.

3. Dövlət təqaüdü alan şəxsləri torpaq və mülklə təmin etməklə dövlət büdcəsinin yükünü azaltmaq [1, 210-211].

Tarixçi Bəlazurinin qeydlərinə görə ərəb qəbilələri Bəsrədən və Suriyadan Azərbaycana köçürülmüşdür. Köçürülən ərəblər hər biri torpaq sahibi ola bilərdilər. Torpaq alan ərəblər yerli əhalidən bu torpaqların əkilməsi və qorunması üçün istifadə edirdilər. Vəziyyət o hala gəlmişdi ki, yerli əhali ərəblərin torpaqlarında xidmət edən qulluqçulara çevrilmişdi [5].

Ümumi olaraq Ərəb xəlifələrinin hakimiyyətləri dövründə işğal etdikləri ərazilərdə həmçinin Azərbaycanda – Arranda gördükləri işləri belə qruplaşdıraq; I Müaviyə 661-680-ci illərdə hakimiyyətdə olan zaman Qafqaza ilk yürüşlər edildi. Xəlifə I Müaviyə ərazi işğal etmək planını tam yekunlaşdırmadığı üçün o, fəth etdiyi ərazilərdə nəzarət işləri gördü. Xəlifə Əbdülməlik 685-705-ci illərdə hakimiyyətdə olarkən işğal olunan bölgələrdə idarəetməni gücləndirməyə əsas önəm verdi. Müəyyən islahatlar keçirib, qərarlar qəbul etdi. Güclü xəlifələrdən sayılan Hişam 724-743-cü illərdə hakimiyyətdə olur. Xəlifə Hişam artıq işğal etdiyi bölgələrdə, xüsusilə də Azərbaycanda möhkəmlənmə tədbirləri görür.

Ərəb istilası və Xilafətin Azərbaycandakı uzunmüddətli hakimiyyəti ölkənin siyasi həyatında olduğu kimi, iqtisadi və mədəni həyatına da təsir göstərdi. Bu dövr məhsuldar qüvvələrin inkişafını və mədəni tərəqqini qısa müddətli ləngitsə də, Xilafət hakimiyyətinin möhkəmlənməsindən sonra ölkədə təsərrüfat və şəhər həyatı bərpa olunmuş, iqtisadi və mədəni inkişaf yenidən yüksəliş mərhələsinə qədəm qoymuşdur. Bundan sonrakı mərhələdə Azərbaycan xalqının mədəniyyəti “ərəb-müsəlman mədəniyyəti” zəminində inkişaf etmişdir. Xilafətin uzun müddət davam edən hakimiyyəti müxtəlif xalqlar arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı ünsiyyətin və mədəni həyatın zənginləşməsinə şərait yaratmışdır. İslam dinini qəbul edən xalqların mədəni inkişafı nəticəsində isə mədəniyyətin əsas sahələrində - ədəbiyyat, fəlsəfə, elm və incəsənətdə ümumi xüsusiyyətlər formalaşmışdır. Elm sahəsində olan ən böyük dəyişiklik Azərbaycan əhalisinin ərəb yazısını qəbul edib, ərəb dilindən istifadəsi idi. Xilafətin hakimiyyəti zamanı qəbul edilən ərəb dili xalqımızın uzun müddət istifadə edəcəyi bir dil oldu. Bundan başqa ədəbiyyat sahəsinə də təsirlər özünü göstərirdi. Ərəb poeziyasının mühüm nailiyyətləri, eləcə də qəzəl, qəsidə kimi əsas poetik formalar və şeirə dair nəzəri

baxışlar Azərbaycan ərazisində geniş şəkildə yayılmışdır. Ümumilikdə, ərəb mədəniyyəti və ədəbiyyatının inkişafı təkcə ərəb xalqlarının fəaliyyəti ilə məhdudlaşmamış, bu prosesdə azərbaycanlıların da rolu olduqca çox olmuşdur. Azərbaycanlı alimlər, mütəfəkkirlər və şairlər İslam mədəni mühitində fəal iştirak edərək, elmi və bədii yaradıcılıqları vasitəsilə ümumi Şərq mədəniyyətinin zənginləşməsinə mühüm töhfələr bəxş etmişlər [4].

Azərbaycanda İslam dininin mövqeyinin möhkəmlənməsi memarlıq sahəsində də yeni inkişaf xəttinin formalaşmasına səbəb omuşdur. Bununla yanaşı, məscidlərin, mədrəsələrin, bazarların, karvansaraların, hamamların və yaşayış binalarının tikintisi konstruktiv memarlıq ənənələri əsasında həyata keçirilmşdir. VII-IX əsrlərin dini memarlığının quruluş xüsusiyyətləri haqqında təsəvvürləri biz daha çox məscidlərdən alırıq. Ən görkəmli nümunə isə Şamaxıdakı Cümə məscididir [4].

Ərəblərin hakimiyyəti dövründə Azərbaycanın əsas şəhərlərinə Bərdə, Marağa, Ərdəbil, Təbriz, Mərənd, Varsan, Bərəznd, Naxçıvan, Urmiya, Səlmas və digər şəhərlər daxil idi. Ərəb coğrafiyaçıları və tarixçiləri tərəfindən qələmə alınmış və günümüzədək gəlib çatmış çoxsaylı əsərlər "ərəb dövrü"nə aid Azərbaycan şəhərləri haqqında zəngin məlumatlar ehtiva edir. Bu materiallar milli tarixşünaslıqda həmin şəhərlərin öyrənilməsi üçün əsas mənbə bazasını təşkil edir. Xilafət miqyasında şəhərlərin mövqeyi, onların inkişaf səviyyəsi, siyasi proseslərin şəhər həyatına və ictimai-iqtisadi münasibətlərə təsiri kimi mürəkkəb və çoxşaxəli məsələlər hələ ötən əsrdə Avropa və rus şərqşünas-tarixçilərinin tədqiqat obyektinə çevrilmişdir. Bununla yanaşı, Azərbaycan tarixçiləri - Z. Bünyadov, S. Aşurbəyli, M. Şərifli, R. Məmmədov və başqaları - yazılı mənbələrin verdiyi dəyərli məlumatlardan geniş şəkildə istifadə etmişlər. Bu biliklər arxeoloji qazıntıların nəticələri ilə zənginləşdirilmiş, Q. Əhmədov, H. Ciddi, İ. Babayev, T. Dostiyev və digər arxeoloqların araşdırmaları sayəsində tədqiq olunan dövrün Azərbaycan şəhərləri haqqında daha obyektiv və elmi əsaslandırılmış təsəvvür formalaşmışdır [7, 128].

## Ədəbiyyat

1. Ağayev, R. (2017). Ərəb xilafəti dövründə Azərbaycan əhalisi. Turxan NPB.
2. Bünyadov, Z. (2007). Azərbaycan VII-IX əsrlərdə. Şərq-Qərb.
3. Cəbiyev, Q. (2010). Girdman tarixi (IV-IX əsrlər). Şərq-Qərb.
4. The culture of Azerbaijan in the period of the Caliphate supremacy. (2018, 3 iyul). Oval.az. https://oval.az/the-culture-of-azerbaijan-in-the-period-of-the-caliphate-supremacy/
5. Qurbanov, A. (2024). Arab Administration and settlement Policy in Azerbaijan. Journal of Islamic History and Literature, (2), 87–91.

6. Vəlixanlı, N. (1993). Ərəb xilafəti və Azərbaycan. Azərnəşr.
7. Vəlixanlı, N. (2016). Azərbaycan VII-XII əsrlər: tarix, mənbələr, şərhlər.

## CULTURAL AND RELIGIOUS CHANGES IN THE PRINCIPLE OF GIRDMAN DURING THE PERIOD OF ARAB RULE

**F.F. Vahidova**
Azerbaijan University, Ceyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Summary:** The article examines the political, cultural and religious changes that occured during the rule of Arab Caliphate in the Girdman principality based on historical sources. The study analyzes the impact of the Arab invasion on the region's administrative system, tax and land relations and the religious life of the poulation. The aericle focuses on the spread of Islam and new realities emerging in religious relations. The study shows that the spread of Islam in Girdman was mainly gradual and staged and local religious and cultural relations maintained their existence for a long time, the influence of "Arab-Muslim culture" vvas clearly manifested in architecture, writing and language relations, literature and everyday life.

**Keywords:** Arab Caliphate, Girdman Principality, Azerbaijan, Islamic religion, political-administrative changes, cultural changes.